**Maliyyə iqtisadiyyatın qan da-
marı, uçot isə onun güzgüsüdür!**

# “MALİYYƏ VƏ UÇOT”
## 11 (183) - 2007

Aylıq nəzəri və elmi-praktiki jurnal
1 Yanvar 1993-cü ildən nəşr edilir.

TƏSİSÇİ:
**Azərbaycan Respublikası Maliyyə Nazirliyi və redaksiyanın əmək kollektivi**

**BU NÖMRƏDƏ:**

**İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ**

S. Y. Müslümov — 2003-2007-ci illər ərzində Azərbaycan Respublikasında sığorta-pensiya sahəsində islahat tədbirləri ........ 3

H. S. Həsənov — Azərbaycanda mezo-biznes qruplarının təşkili konturları ........ 7

E. R. Bağırzadə — Gizli iqtisadiyyat və sərhəddlərinin müəyyən edilməsi problemi: MHS çərçivəli yanaşma ........ 14

R. M. Məmmədov — Xarici ölkələrin rəqabət qabiliyyətliliyinin artırılmasında klasterlərdən istifadə təcrübəsi ........ 20

A. Y. Əliyev — İnvestisiya layihələrinin qiymətləndirilməsi prinsipləri, meyar və göstəriciləri ........ 26

**MÜHASİBAT UÇOTU, AUDİT VƏ İQTİSADİ TƏHLİL**

Q. Ə. Abbasov, H. Q. Əkbərova — Mənfəətin strateji idarəedilməsi problemləri. ........ 32

**RƏSMİ MATERİALLAR**

“Azərbaycan Respublikasında dövlət qaz nəzarəti haqqında Əsasnamə”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 91 No.-li Qərarı ........ 41

Azərbaycan Respublikasında dövlət qaz nəzarəti haqqında Əsasnamə

“Vergi hesabatının elektron sənəd formasında göndərilməsi Qaydası”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 120 No.-li Qərarı ........ 45

Vergi hesabatının elektron sənəd formasında göndərilməsi Qaydası ........ 45

**AZƏRBAYCAN RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİNDƏ**

2007-ci ilin doqquz ayında Azərbaycan Respublikası dövlət büdcəsinin icrası ........ 49

YARARLI İNFORMASİYA ........ 56

**Baş redaktor: QƏZƏNFƏR ƏLİÇRAQLI (ABBASOV**

**Redaksiya heyəti: S. R. Şərifov, H. X. Əsədov, R. B. Əliyev, Ə. F. Əlirzayev, T. Ə. Quliyev,**
**S. M. Qasımov, E. O. Cəfərov, N. M. İsmayılov, M. X. Meybullayev, S. Y. Müslümov,**
**C. B. Namasova, B. A. Xankişiyev, S. M. Səbzəliyev, M. M. Sadıqov, Ə. A. Sadıqov,**
**S. M. Süleymanov, M. M. Rəsulov, Z. Ə. Fərəcov, S. M. Yaqubov**

**Texniki redakor: T. H. Kərimova**

Yığılmağa verilmişdir: 31. 10. 2007, çapa imzalanmışdır: 20. 11. 2007.
Uçot çap vərəqi 7,0. Şərti şap vərəqi 6, 51. Sifariş 4376.
Tiraj 950. Format 60x84 1/8 Ofset çapı.
Qiyməti 7 manat.
**Redaksiyanın ünvanı: Bakı Az 1022, S. Vurğun küç. 83, tel.: 493-81-69, 050-325-79-67**
**Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

**“Azərbaycan” nəşriyyatının mətbəəsi,**
**Az 1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə**

**Maliyyə və uçot – 2007-ci il**

## GİZLİ İQTİSADİYYAT VƏ SƏRHƏDDLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ PROBLEMİ : MHS ÇƏRÇİVƏLİ YANAŞMA

dis. E. R. BAĞIRZADƏ
AzDİU Magistr Hazırlığı Mərkəzi

Gizli iqtisadiyyat bütün dövrlərdə əsas sosial-iqtisadi problemlərdən biri kimi müxtəlif elmi dairələr, dövlət və özəl sektor qrumları, QHT-lər və cəmiyyətin digər təbəqələrinin nəzər nöqtəsində olmuş, bu mürəkkəb, həmçinin mürəkkəb olduğu qədər də ziddiyyətli problemlə bağlı çoxlu araşdırmalar aparılmışdır. Mövzu üzrə ilk elmi araşdırmalar hələ XX əsrin əvvəllərinə təsadüf etsə də, son 30 ildə bunun daha da intensivləşdiyi müşahidə edilir. Belə ki, məhz 1970-ci illərdə dünya iqtisadiyyatında böhranların baş verməsi və "Sosial Dövlət" doktrinasının nəticəsi kimi xərclərin durmadan artmasına baxmayaraq, dövlətin zəruri həcmdə gəlir əldə edə bilməməsi, əksər inkişaf etmiş ölkələrdə büdcə kəsiri probleminin dərinləşməsinə səbəb olmuş və həmin dövrdən başlayaraq gizli iqtisadiyyat, xüsusilə də vergidən yayınma və onun miqyası tədqiqatçıların ən çox müzakirə etdiyi mövzulardan birinə çevrilmişdir [12, səh.18].

Lakin aparılan tədqiqatların çoxluğuna baxmayaraq, hələ də həm nəzəri, həm də praktiki dairələrdə gizli iqtisadiyyat fenomeninin müxtəlif aspektləri ilə bağlı fərqli yanaşmalar, ziddiyyətli fikirlər və qeyri-müəyyənliklər hökm sürməkdədir. Aparılan tədqiqatların təhlili göstərir ki, **maliyyə elmi ilə məşğul olan tədqiqatçılar** gizli iqtisadiyyatdan danışarkən, daha çox vergidən yayınma və vergi qaçaqçılığı, uçotdankənar qaydada aparılan maliyyə əməliyyatları kimi problemlər üzərində, **təhlükəsizlik problemlərilə məşğul olanlar,** silah və narkotik- psixotropik maddə ticarəti, ölkəyə müxtəlif yollarla daxil olaraq, uçotsuz qaydada əmək fəaliyyəti ilə məşğul olan miqrantların axını və fahişəlik kimi qanunsuz və cinayət xarakterli fəaliyyətlər üzərində, **sosioloqlar** problemin kənddən şəhərə axın, gəlir bölgüsü kimi sosial səbəbləri üzərində, **sosial müdafiə məsələləri ilə məşğul olanlar isə** gizli iqtisadiyyatın gizli məşğulluq aspektinə toxunaraq, sosial müdafiə qurumlarına tamamilə və ya qismən bəyan edilməyən məşğulluq və onun yaratdığı sosial-iqtisadi nəticələr üzərində dayanırlar. Belə baxışlar gizli iqtisadi fəaliyyətlərlə bağlı terminlərdə, gizli iqtisadiyyatın kəmiyyət qiymətləndirilməsində, çirkli pulların yuyulmasında, korrupsiya və gizli məşğulluq arasındakı əlaqələrin izahına olan yanaşmalarda da özünü açıq şəkildə göstərir.

**Tədqiqatlarımızın nəticəsi olaraq, belə qənaətə gəlirik ki, əslində gizli iqtisadiyyatla bağlı mövcüd fikir müxtəlifliklərinin demək olar ki, hamısının əsasında gizli iqtisadiyyat anlayışı və onun sərhəddlərinin müəyyən edilməsi ilə bağlı ümumi fikir birliyinin olmaması dayanır.** Biz hesab edirik ki, bu fikir birliyinin əldə edilməsi elə də mümkün olmayan məsələ deyil. Buna görə MHS konvensiyası və gizli iqtisadiyyat nəzəriyyəsinin mövcud nailiyyətləri çərçivəsində, bunu reallaşdırmaq olar və bu məqalə də məhz bu istiqamətdə aparılan tədqiqatlara xidmət etməyi qarşısına məqsəd qoyur.

Mövcud ədəbiyyatlarda gizli iqtisadiyyat anlayışının bir-birindən fərqli müxtəlif izahlarına rast gəlmək mümkündür. Məsələn, **Feige Edgar** gizli iqtisadiyyata, "rəsmi hesablanan ÜDM göstəricisinin əhatə etməli olduğu qeydə alınmayan bütün iqtisadi fəaliy-

yətlər”[4], **Smith Phillip** “ÜDM hesablamalarından kənarda qalan, leqal və ya qeyri-leqal olmasından asılı olmayaraq bazara istiqamətlənmiş əmtəə və xidmətlər istehsalı”[9], **Bhattacharyya Dilip** “dövr edən pul kütləsinə uyğun potensial milli gəlir ilə real olaraq qeydə alınmış milli gəlir arasındakı fərq”[2], **Acharya Shankar** “vergiyə cəlb edilməli olduğu halda, vergi orqanlarına bəyan edilməyən gəlirlərin məcmusu” [7], **Schneider Friedrich** “nəticəsində əlavə dəyər yaradıldığı və Milli Hesablar Sistemi konvensiyası şərtlərinə uyğun olaraq, milli gəlir hesablarına daxil olmalı olduğu halda, faktiki olaraq milli statistika orqanları tərəfindən uçota alınmamış bütün iqtisadi fəaliyyətlər”[8], **Loayza** “dövlətin vergiqoyma və digər tənzimləmə tədbirləri ilə razılaşmayan iqtisadi vahidlər şəbəkəsi”[5], **Tanzi Vito** “rəsmi statistikanın qeydə almalı olduğu halda, qeydə ala bilmədiyi gəlir yaradan iqtisadi fəaliyyətlər”[11], **Bagachwa və Nahoya** “qeyri-formal (kiçik həcmli istehsal və təsərrüfat vahidləri), paralel (qanunla icazə verilən məhsulların qeyri-leqal istehsalı ilə məşğul olan) və qara bazar (dövlət tərəfindən qadağan edilən bazar və qeyri-bazar xarakterli əmtəələrin istehsalı və bölüşdürülməsini həyata keçirən) fəaliyyətlərinin məcmusu”[7], **Carter** “qeyri-formal (ÜDM-də əhatə olunmayan və buna görə də ölçülməsinə cəhd edilmyən, ev təsərrüfatlarında şəxsi tələbat üçün istehsal fəaliyyətlərini, fərdlər arasında isə bir sıra qarşılıqlı əməliyyatlar və.s) və "yeraltı” (kəmiyyət üzrə qiymətləndirmənin mümkünlüyünə baxmayaraq, rəsmi qeydiyyat və hesablamalardan yayınan bir sıra fəaliyyətlər; birincisinə rəsmi qeydiyyatdan keçmiş iqtisadi subyektlərin gəlir və ya xərclərinin bir hissəsinin vergidən yayındırılması və bəzi lisenziya öhdəliklərinə əməl etməyən fəaliyyətlər aid olduğu halda, ikincisinə qeydiyyatdan keçməmiş iqtisadi subyektlərin bəyan edilməyən bütün gəlir, xərc, istehsal, xidmət və.s əməliyyatları aiddir) iqtisadi fəliyyətlərin məcmusu”[3], **Латов və Ковалев** “dövlətin uçot və nəzarətindən kənarda inkişaf edən və buna görə də rəsmi statistikada əks olunmayan iqtisadi fəaliyyətlər”[6], **Altuğ Osman** “heç bir sənədlə rəsmiləşdirilməyən və ya məzmunu reallığı əks etdirməyən sənədlərlə həyata keçirilən iqtisadi hadisənin dövlətdən və firma ilə bağlı digər (şəriklər, debitorlar, işçilər və.s) şəxslərdən tamamilə və yaxud qismən gizlədilərək rəsmi iqtisadiyyatın xaricinə çıxarılması”[1] **Yereli və Karadeniz** isə “məlum statistik metodlarla müəyyən edilə bilməyən və ÜDM hesablarının təyin edilməsində istifadə edilə bilməyən, qanunlar çərçivəsində, yaxud da qanunlara zidd şəkildə həyata keçirilən, müvafiq orqanların tamamilə və ya qismən məlumatından kənar olan və dövlət üçün müəyyən gəlir itkisinə səbəb olan iqtisadi və maliyyə fəaliyyətlərinin məcmusu” [12] kimi yanaşırlar.

Təqdim edilən yanaşmalara diqqətlə nəzər yetirsək, görərik ki, onların hamısında gizli iqtisadiyyat, rəsmi iqtisadiyyata nəzərən xarakterizə olunur və ona iqtisadi fəaliyyətlərin rəsmi iqtisadiyyatın xaricində qalan bu və ya digər qismi aid edilir. **Deməli, gizli iqtisadiyyat və onun sərhədlərinin daha dəqiq şərh edilməsi üçün, onu, ümumi şəkildə rəsmi iqtisadiyyatdan kənarda qalan iqtisadiyyat kimi qəbul edərək, əvvəlcə rəsmi iqtisadiyyat anlayışına aydınlıq gətirilməli, sonra isə bu anlayışlardan çıxış edərək, gizli iqtisadiyyat anlayışı və onun sərhəddləri dəqiqləşdirilməlidir.**

Rəsmi iqtisadiyyat anlayışına statistik və hüquqi cəhətdən, iki cür yanaşmaq mümkündür. **Statistik baxımdan rəsmi iqtisadiyyat anlayışı Milli Hesablar Sistemi konvensiyası (MHS) çərçivəsində tətbiq edilən milli gəlir statistikasına əsasən, qeydə alın-**

**malı olan iqtisadi fəaliyyətlərin faktiki qeydə alınmış hissəsini əhatə edir.** Hüquqi baxımdan rəsmi iqtisadiyyat anlayışı isə statistik baxımdan rəsmi iqtisadiyyat anlayışına nisbətən daha məhdud məhfumdur. Bu məhdudiyyət hər ölkənin öz milli qanunvericiliyinin mövcud olması və bir ölkədə uçota alınması nəzərdə tutulan hər hansı iqtisadi fəaliyyətin digərində uçota alınması nəzərdə tutulmaya və onun həyata keçirilməsi qanunla qadağan oluna bilməsi ilə əlaqədardır. Buna, bəzi ölkələrdə fahişəxana xidmətləri və ya narkotik maddə istehsalı ilə bağlı əməliyyatların uçota alınması (rəsmiləşdirilməsi) nəzərdə tutulduğu halda, Azərbaycan qanunvericiliyində nəinki bunun uçota alınmasının nəzərdə tutulması, ümumiyyətlə bu kimi məhsul və xidmətlərin istehsalı və satışı ilə bağlı hər cür əməliyyatın cinayət tərkibli əməl qəbul olunmasını və onun qəti qadağan edilməsini misal göstərmək olar. **Bir sözlə, hüquqi baxımdan rəsmi iqtisadiyyat dedikdə, ölkə qanunvericiliyi tərəfindən rəsmiləşdirilməsi (uçotu) nəzərdə tutulmuş bütün iqtisadi fəaliyyətlərin faktiki rəsmiləşdirilmiş hissəsi başa düşülür.**

Belə olduğu halda, yuxarıda qeyd edilən hər iki yanaşmaya uyğun olaraq, rəsmi iqtisadiyyatı ən geniş şəkildə "hər hansı bir ölkədə MHS və mövcud qanunvericiliyə əsasən iqtisadi subyektlərin faktiki qeydə alınmış bütün iqtisadi fəaliyyətlərinin məcmusu" kimi ifadə edə bilərik. **Başqa sözlə, rəsmi iqtisadiyyat, MHS və mövcud qanunvericilik tərəfindən qeydə alınması tələb olunan məcmu iqtisadi fəaliyyətlərin faktiki qeydə alınmış hissəsini əhatə edir.** Həqiqətən də, bəzi fəaliyyətlərin qeydə alınması MHS, bəzilərinki isə qanunvericilik tərəfindən nəzərdə tutulmadığından rəsmi iqtisadiyyata aid edilmirlər. Eyni zamanda rəsmi praktikada, qeydə alınması tələb olunan iqtisadi fəaliyyətlərin bir hissəsi müxtəlif səbəblərdən uçotdan kənarda qaldığından və buna görə də rəsmi iqtisadiyyat göstəricilərində öz əksini tapmadığından, rəsmi iqtisadiyyata məhz faktiki qeydə alınmış iqtisadi fəaliyyətlər daxil edilir. Belə olduqda rəsmi iqtisadiyyatın sərhədləri necə müəyyən edilməlidir sualı meydana çıxır. Hesab edirik ki, bu suala MHS-1993 konvensiyasında irəli sürülmüş "istehsal sərhəddi" (production boundary)[1] anlayışı çərçivəsində ətraflı cavab vermək mümkündür. "İstehsal sərhəddi" milli gəlir statistikasının obyekti hesab olunan iqtisadi fəaliyyətlər qrupunu əhatə edir**. Başqa sözlə, rəsmi iqtisadiyyatın sərhədləri dedikdə, ÜDM (ÜMM) göstəricisinin əhatə etməli olduğu, ev təsərrüfatlarında şəxsi istehlakı ödəmək məqsədilə həyata keçirilən iqtisadi fəaliyyətlər istisna olmaqla, əlavə dəyərin yaradıldığı bütün iqtisadi fəaliyyət qrupları aid edilən məcmu iqtisadi fəaliyyətlərin çərçivəsi nəzərdə tutulur.**

Şəkil 1-dən də göründüyü kimi ev təsərrüfatlarında şəxsi istehlak məqsədli iqtisadi fəaliyyətlər rəsmi iqtisadiyyatın sərhədlərinə daxil edilmir və ÜDM göstəriciləri hesablanan zaman bu cür fəaliyyətlər nəzərə alınmır. MHS-1993 konvensiyasına görə həmin fəaliyyətlərə (do-it-yourself ) : mənzilin cari təmiri, təmizlənməsi və.s işlər; ev təsərrüfatı alətlərinin təmiri, təmizlənməsi və saxlanması; yeməklərin hazırlanması və təqdim edilməsi; uşaqlara qayğı; xəstə və yaşlı ailə üzvlərinə qayğı; ev təsərrüfatı üzvlərinin və ya məhsullarının nəqli kimi fərdi xidmətlər aid edilir. Konvensiyaya görə bu tipli istehsal və xidmət eyni ev təsərrüfatı daxilində həyata keçirilib, istehlak edilirsə, MHS-nin "**istehsal sərhəddi**"nə daxil edilmir. Həmin fəaliyyətlərə bu cür yanaşmanın əsas səbəbi onların kəmiyyət qiymətləndirilməsində istifadə edilməli olan müvafiq bazar qiymətlərinin olmaması (onların

[1] Daha ətraflı bax: System of National Accounts 1993, http://unstats.un.org/unsd/sna1993/toclev8.asp?L1=6&L2=2;

əksəriyyəti bazar üçün istehsal edilmədiyindən) və yaradılan əlavə dəyərin monetar dəyərdən daha fərqli iqtisadi məna daşımasından (məs. yardımlaşma) ibarətdir.

Burada, istehsal baş verdiyi zaman əldə olunan məhsulların bazar və ya şəxsi istehlak üçün nəzərdə tutulub-tutulmadığı və ya hansı nisbətdə bu məqsədlər üçün istehsal edildiyini aydınlaşdırmaq mürəkkəb məsələ hesab edilir. Buna görə MHS- 1993 konvensiyası ev təsərrüfatı istehsalının konkret növlərinin (own-account production of goods) şəxsi istehlak üçün nəzərdə tutulub - tutulmadığına fikir vermədən, onların istehsal sərhəddinə alınmalı olduğunu göstərmişdir.

Onu da qeyd edək ki, ev təsərrüfatlarında şəxsi istehlak məqsədləri ilə istehsal olunan məhsulların milli gəlir statistikasında nəzərə alınmamasına baxmayaraq, konvensiya bu tip əmtəə və xidmətlərin əlavə hesablar çərçivəsində qiymətləndirilməsi və zərurət yarandıqda milli gəlirə əlavə edilib "**genişləndirilmiş (enhanced) milli gəlirin**" hesablanmasının mümkünlüyünü də tövsiyyə etmişdir.

**Şəkil 1**

**a) MHS-də rəsmi iqtisadiyyat və onun sərhədləri**




**b ) MHS-də rəsmi iqtisdiyyat (ÜDM) və əhatə edə bilmədiyi iqtisadi fəaliyyətlər**




Şəkil 1-ə nəzər saldıqda həm də onu da görmək olar ki, ÜDM göstəricisinin əhatə etməli olduğu halda, faktiki olaraq qeydə alına bilinmədiyi fəaliyyətlər də mövcuddur ki, bunlar da MHS konvensiyası çərçivəsində aşağıdakı kimi qruplaşdırılır:

- Bu sahədə fəaliyyət göstərilməsi qanunvericiliklə qadağan olunmayan, lakin fəaliyyət subyektinin bəzi qanuni öhdəliklərini (məs.vergi) yerinə yetirməkdən yayındırmaq məqsədilə, müvafiq dövlət orqanlarından tamamilə və ya bir hissəsini gizlətdiyi iqtisadi fəaliyyətlər (concealed production and the underground economy).

- Bu sahədə fəaliyyət göstərilməsi qanunvericiliklə qəti qadağan olunan, lakin fəaliyyət subyektləri tərəfindən müvafiq dövlət orqanlarından tamamilə gizli həyata keçirilən iqtisadi fəaliyyətlər (illegal production).

Xatırladaq ki, sonuncu fəaliyyət qrupunun “istehsal sərhəddi” daxilində qəbul edilməsi, başqa sözlə ÜDM-nin əhatə etməli olduğu fəaliyyətlərə daxil edilməsi uzun müddət mübahisə doğursa da, yalnız MHS-1993 konvensiyası ilə onlar “istehsal sərhədi”nə daxil edilmişdir.

Beləliklə, 1993-cü il MHS konvensiyasına görə:

- **Rəsmi iqtisadiyyat** ÜDM göstəricisinin əhatə etdiyi iqtisadi fəaliyyətlərdir;
- **Rəsmi iqtisadiyyatın sərhədləri və ya ÜDM-nin əhatə etməli olduğu iqtisadiy-yat** ÜDM göstəricisinin əhatə etdiyi iqtisadi fəaliyyətlərdən, qanunla qadağan olunmayan, lakin bəzi qanuni öhdəliklərdən yayınmaq məqsədilə qeydiy-yatdan keçməyən və qanunla qadağan olunan iqtisadi fəaliyyətlərdən ibarətdir;
- **Rəsmi iqtisadiyyatın xaricində qalan iqtisadiyyat** isə qanunla qadağan olunmayan, lakin bəzi qanuni öhdəliklərdən yayınmaq məqsədilə qeydiyyatdan keçməyən iqtisadi fəaliyyətlər, qanunla qadağan olunan iqtisadi fəaliyyətlər və ev təsərrüfatlarında şəxsi istehlak məqsədli iqtisadi fəaliyyətlərin məcmusudur.

**Rəsmi iqtisadiyyat və onun sərhədləri müəyyən edildikdən sonra, gizli iqtisadiyyat anlayışı və onun sərhədləri məsələsinə də aydınlıq gətirmək asanlaşır. Məlumdur ki, gizli iqtisadiyyat, rəsmi iqtisadiyyatın xaricində qalan iqtisadi fəaliyyətdir. Lakin burada bir sual meydana çıxır: gizli iqtisadiyyat rəsmi iqtisadiyyatın xaricində qalan iqtisadiyyatı bütövlükdə əhatə etməli, yaxud rəsmi iqtisadiyyatın sərhədləri daxilində olan və ya ÜDM göstəricisinin əhatə etməli olduğu, lakin qeydiyyatdan kənarda qalan hissəsinimi əhatə etməlidir?** Bu suala müxtəlif tədqiqatçılar fərqli cavablar vermişdir. Yanaşmaların təhlili göstərir ki, Feige, Acharya, Loayza, Tanzi, Smith, Bhattacharyya, Schneider, Altuğ, Yereli və Karadeniz, Латов və Ковалев kimi tədqiqatçılar gizli iqtisadiyyatı rəsmi iqtisadiyyatın sərhədlərinə daxil olduğu halda, faktiki olaraq qeydə alınmayan iqtisadi fəaliyyətlərin məcmusu kimi [1, 2, 4, 5, 6, 7, 8, 9, 11, 12], Bagachwa və Nahoya, Carter kimi tədqiqatçılar isə rəsmi iqtisadiyyatın xaricində qalan bütün iqtisadi fəaliyyətlərin məcmusu kimi [3, 7] qəbul edirlər. Başqa sözlə, iqtisadi ədəbiyyatlarda: **1. Dar mənada gizli iqtisadiyyat dedikdə,** rəsmi iqtisadiyyatın sərhəddləri daxilində və ya ÜDM göstəricisinin əhatə etməli olduğu halda, faktiki olaraq qeydə alınmayan və milli gəlir statistikasında öz əksini tapmayan iqtisadi fəaliyyətlərin məcmusu; **2. Geniş mənada gizli iqtisadiyyat dedikdə**, rəsmi iqtisadiyyatın sərhəddləri daxilində olub-olmamasından asılı olmayaraq, faktiki olaraq qeydə alınmayan və milli gəlir statistikasında öz əksini tapmayan bütün iqtisadi fəaliyyətlərin məcmusu başa düşülür.

**Şəkil 2**

**MHS-də gizli iqtisadiyyat**

**İQTİSADİYYAT**

| | | | |
|---|---|---|---|
| **Rəsmi (ölçülmüş) iqtisadi fəaliyyətlər (ÜDM)** | **Qanunsuz iqtisadi fəaliyyətlər** | **Qanuni, lakin dövlətdən gizlədilən iqtisadi fəaliyyətlər** | **Şəxsi istehlak məqsədli ev təsərrüfatı fəaliyyətləri** |

**GİZLİ İQTİSADİYYAT**

Hesab edirik ki, problemlə bağlı ümumi fikir birliyi əldə edilməsi baxımından, birinci yanaşmaya üstünlük vermək daha doğru olar (bax: Şəkil 2). Bu hər şeydən əvvəl sözü gedən yanaşmanın, demək olar ki, bütün ölkələrin qoşulduğu MHS-1993 konvensiyasının müddəaları ilə üst-üstə düşməsi ilə əlaqədardır. Digər tərəfdən adı çəkilən yanaşma, akademik dairələrdə nisbətən daha geniş qəbul edilmiş yanaşmadır. Ən nəhayət, mahiyyəti, məqsədi və həyata keçirilmə metodları baxımından rəsmi iqtisadiyyatın xaricində qalan digər fəaliyyət qruplarından tamamilə fərqlənən ev təsərrüfatında şəxsi istehlak məqsədli iqtisadi fəaliyyətlərin gizli iqtisadiyyatın xaricində qəbul edilməsi, gizli iqtisadiyyata yönələn vahid dövlət siyasətinin formalaşdırılması baxımından da əhəmiyyətlidir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


1. ALTUĞ O. Kayıtdışı ekonomi, İstanbul: Türkmen kitabevi, 1999, s. 508.
2. BHATTACHARYYA D. On the Economic Rationale of Estimating the Hidden Economy // The Economic Journal 109/456, 1999, pp. 348-359.
3. CARTER M. Issues in the Hidden Economy // Economic Record, Vol. 60, 1984, pp. 209-211.
4. FEIGE E. The Underground Economy and the Currency Enigma // Supplement to Public Finance / Finances Publiques, 49, 1994, pp. 119-136.
5. LOAYZA N. The Economics of Informal Sector : a Simple Model and Some Empirical Evidence from Latin America // Carnegie Rochester Series on Public Policy, North-Holland 45, 1996, pp. 129-162.
6. ЛАТОВ Ю., КОВАЛЕВ С. Теневая Экономика. Москва: НОРМА, 2006, s.335.
7. SCHNEIDER F., CHAUDHURI K., CHATTERIEE S. The Size and Development of the Indian Shadow Economy and a Comparison with other 18 Asian Countries: An Empirical Investigation. Working Paper No. 0302, Johannes Kepler University Linz Department of Economics,April 2003, p. 32.
8. SCHNEIDER, F. Estimating the size of the Danish shadow economy using the currency demand approach: An attempt // The Scandinavian Journal of Economics, 88/4, 1986, pp. 643-688.
9. SMITH P. Assessing the Size of the Underground Economy: The Canadian Statistical Perspectives // Canadian Econ. Observer, Cat. No. 11-010, 3.16-33, at 3.18, 1994.
10. UNITED NATIONS, EUROSTAT, IMF, OECD, WORLD BANK, System of National Accounts 1993, Washington, 1993
11. TANZI V. The Underground Economy in the United States: Estimates and implications // Banca Nazionale del Lavoro., 1980, Vol. 135(4), pp.427-453.
12. YERELİ A., KARADENİZ O. Kayıt Dışı İstihdam, Ankara: FERSA MATBAACILIK, 2004, s. 258.


## РЕЗЮМЕ

### Теневая экономика и проблема определения ее границ: СНС базирующийся подход


Исследование проблемы выставляет отличающий друг от друга различные подходы о выясняет понятие теневой экономики и определяющие его граничы. Здесь официальная экономика, а такие определяюшие его граничы, в решений проблемы имеет важный этап. Уточнение понятие офичиальной экономики даёт наш возможность дать определённые мысли по поводу экономических деятельностей оставшихся вне его граничы. Существуют две отличительных понятий о связи теневой экономики с оставшейся вне официальной экономики экономической деятельностыю: 1) некоторые считают, что под теневой экономикой понимается находяшиеся внутры границ понятия только официальной экономики, но неучётные разльчным причиням цифры официальной экономики; 2) а другие считают, что все деятельности, находяшиеся вне границ официальной экономики, мошно отнести к теневой экономики. Мы полагаем, что, чтобы предпочесть первый подход с точки зрения добираются до единства общей мысли о концепции теневая экономики возможно более истинный. Поэтому прежде всего это, этот подход совпадает с тезисами СНС-1993 соглашения, к которым все страны присоединились. С другой стороны, этот подход принят скорее шире в кругах академика. Наконец, чтобы принять во внешней стороне теневая экономики экономичные действия частной цели потребления в домашнем хозяйстве, что отличаясь от сущности представления пункта, цель и

методы орудия от групп других действий во внешней стороне официальной экономики, от формирования представления пункта из общего направления публичного порядка к теневая экономике важны.

**SUMMARY**

**Hidden economy and the problem of determining its boundaries: sna-based approach**

Researching of the problem show that there are different approaches about determining of hidden economy and its boundaries. Here, it must think an important stage to define an official economy and its boundaries on resolving of the problem. Defining concept of official economy to give opportunity us to say some opinions about activities that outside of official economy. Now, there are two approaches about relationship between activities that outside of official economy and hidden economy: 1) Some researchers consider that, activities that inside of boundaries of official economy, but because of different causes excluded indicators of official economy are hidden economic activities only. 2) But other researchers consider that all of activities that outside official economy are hidden economic activities. We consider that to prefer the first approach from point of view get to unity of general thought about conception of hidden economy is possible more true. Therefore first of all that, this approach coincides with theses of SNA -1993 convention that all countries joined. On the other hand, this approach is accepted rather wider in academician circles. At last, to accept in outside of hidden economy economical activities of private consumption purpose in the household that differing from point view essence, purpose and methods of implement from groups of other activities in the outside of the official economy, from point view forming of the common public policy directing to hidden economy is important.